Risk
Management
Professionals

rmp

# Working Together to Build a Safer Future

# RMP nədir?

## RMP-Risk Menecment Peşəkarları

Müxtəlif sahələri əhatə edən risklərin qiymətləndirilməsi və idarə edilməsində mütəxəssis olan şəxsləri bir araya toplayaraq ölkəmizdəki sağlamlıq, təhlükəsizlik və ekoloji ənənələri inkişaf etdirməyi hədəf seçən birlikdir.

Birliyin əsas məqsədi sahibkarlığın inkişafı üçün Sağlamlıq, Əməyin Təşkili və Mühafizəsi, Ətraf Mühit, Keyfiyyət, biznesin idarə olunması və digər sahələrdə risklərin idarə olunmasına dəstək olmaq üçün bu sahələrdə fəaliyyət göstərən mütəxəssisləri bir araya gətirməkdir.




## Məqsədimiz:

- SƏTƏM, keyfiyyət və biznesin digər sahələrində gündəmə gələn çətinliklərin həll yollarını araşdırmaq;
- Sizi düşündürən aktual məsələlərin müzakirəsinə şərait yaratmaq;
- Yaxşı təcrübələrin paylaşılması;
- İri həcmli konfranslar, təcrübə proqramlarının təşkili;
- Birgə ictimai layihələrin həyata keçirilməsinə dəstək;
- Biznes risklərini araşdırmaq və mövcud problemlərin həllində onlara yardım etmək;
- Sağlamlıq, Əməyin Təşkili və Mühafizəsi, Ətraf Mühit , Keyfiyyət və sairə sahələr üzrə çalışan mütəxəssislərin bilik və bacarıqlarının artmasına dəstək vermək;
- Risklərin idarə olunması sahəsində çalışan mütəxəssisləri bu sahədə aktiv fəaliyyətə cəlb etmək.

# Fəxri

Fəaliyyət göstərdiyiniz sahədə müstəsna qabiliyyətinizi, yüksək təcrübənizi və peşəkarlığınızı gənc nəsillərə ötürmək və yeniliklərdən xəbərdar olmaq istəyirsinizmi?

**Fəxri Üzvlük** – Bu üzvlük sizə cəmiyyətin inkişafında, yeni nəsillərin düzgün istiqamətləndirilməsində rol oynamağa fürsət yaradır.

Qazandığınız təcrübələri RMP ailəsi ilə paylaşmaq üçün ən gözəl imkan sizin əlinizdədir.




## Fəxri üzvlük üçün tələb olunanlar:

- Ali təhsil / MBA/ NVQ Level 5-6 (və ya Ekvivalent)
- Neft-Qaz, Tikinti, İdarəetmə və digər sənaye sahələrində minimum 15 il iş təcrübəsi (tövsiyə məktubu)




# Mütəxəssis

Bilik və bacarıqlarınızı paylaşaraq gücləndirmək və yeniliklərdən xəbərdar olmaq istəyirsinizmi?

**Mütəxəssis Üzvlük** – Peşə sahəsində müəyyən bilik və təcrübəyə sahib olan, sənayenin aparıcı təşkilatlarında fəaliyyət göstərən şəxslər üçün nəzərdə tutulub.

## Mütəxəssis üzvlük üçün tələb olunanlar:

- Ali təhsil
- Neft-Qaz, Tikinti, İdarəetmə və digər sənaye sahələrində minimum 5 il iş təcrübəsi (tövsiyə məktubu)
- Bakalavr dərəcəsi, NVQ Level 3 (və ya Ekvivalent)
- Şirkət tərəfindən işlədiyi sahəni təsdiq edən sənəd




# Texniki

Peşəkar təcrübənin astanasında bacarıqlarınızın tanınması, zənginləşməsi üçün axtarışdasınız?

**Texniki Üzvlük** – Peşə sahəsindəki təcrübənizi RMP-yə üzv olan digər peşəkarların təcrübə və biliklərindən yararlanaraq zənginləşdirin. Üzvlük sizə sahənizin paşəkarı olma bacarıqlarına yiyələnmək imkanı yaradacaq.

## Texniki üzvlük üçün tələb olunanlar:

- Ali təhsil
- Neft-Qaz, Tikinti, İdarəetmə və digər sənaye sahələrində minimum 3 il iş təcrübəsi (tövsiyə məktubu)
- Bakalavr dərəcəsi, IOSH (və ya ekvivalent)
- Şirkət tərəfindən işlədiyi sahəni təsdiq edən sənəd

# Tələbə

Bilik və bacarıqlarınızdan istifadə edərək peşəkar və yaradıcı mühitdə inkişaf etməyə maraqlısınızmı?

**Tələbə Üzvlük** – Karyera pilləsinin ilk addımlarında düzgün irəliləmək üçün peşəkar bir cəmiyyətin üzvü olub istiqamətlənməyə imkan yaradır.

## Tələbə üzvlük üçün tələb olunanlar:

- Tələbə olduğunuzu təsdiq edən sənəd (tələbə bileti)
- Biznesin təşkili və idarə olunması, neft-qaz, kənd təsərrüfatı, tikinti və sənayenin digər müvafiq sahələrində təhsil alan şəxslər
- Aktiv, bacarıqlı, intellektual olan gənclər



# Korporativ Tərəfdaşlıq

Fəaliyyət göstərdiyiniz sahədəki risklərə daha çox önləyici yanaşma metodlarını inkişaf etdirmək, sənayedəki dəyişən tələblərdən və yeniliklərdən xəbərdar olmaq istəyirsinizmi?

**Korporativ Tərəfdaşlıq** - İş yerinizdəki risklərin idarə olunması zamanı meydana çıxan problemlərin peşəkarlarla müzakirə edilməsi və həlli yollarının araşdırılması,müxtəlif təcrübələrin paylaşılması, yeni texnologiya və tələblərin öyrənilməsi fürsətini yaradacaq.




## Korporativ Tərəfdaşlar aşağıdakı imkan və faydalardan yararlana bilər:

- Risklərin idarəedilməsi üzrə mütəxəssislərin iştirak edəcəyi tədbir və konfranslarda reklam lövhələrinizin yerləşdirilməsi
- RMP veb səhifəsində (illik) məhsul və xidmətlərinizin reklamı
- Sərgilərdə məhsullarınızın təqdimatına yer verilməsi
- Profilinizi qlobal risk, təhlükəsizlik və biznes mütəxəssisləri birliyi arasında yüksəltmək imkanı
- TCS dəstəyi ilə tələb olunan təlimlər üçün tərəfdaşlığa uyğun endirimlər
- Konsaltinq xidmətlərindən endirimlər əldə etmə
- Rəsmi RMP (Corporate Partnership) loqosundan istifadə etmək hüququ qazanmaq
- Tərəfdaşlıq sertifikatının əldə edilməsi

# Korporativ Üzvlük

Fəaliyyət göstərdiyiniz sahədəki risklərə daha çox önləyici yanaşma metodlarını inkişaf etdirmək, sənayedəki dəyişən tələblərdən və yeniliklərdən xəbərdar olmaq istəyirsinizmi?

**Korporativ Üzvlük** – İş yerinizdəki risklərin idarə olunması zamanı meydana çıxan problemlərin peşəkarlarla müzakirə edilməsi və həlli yollarının araşdırılması, müxtəlif təcrübələrin paylaşılması, yeni texnologiya və tələblərin öyrənilməsi fürsətini yaradacaq.




## Korporativ Üzvlük aşağıdakı imkan və faydalardan yararlana bilər:

- Aktual mövzuların müzakirəsi, qlobal risklərin qiymətləndirilməsi, ətraf mühit və sağlamlığın təhlükəsizliyi və biznes sahəsinin professionalları ilə onlayn və üz-üzə ünsiyyət
- Riskləri effektiv idarə etmək öhdəliyini nümayiş etdirmə imkanı
- Tədbirlərdə/konfranslarda təqdimatçı qismində çıxış haqqı (təqdimat materiallarına ön baxış mütləqdir)
- Profilinizin qlobal risk, təhlükəsizlik və biznes mütəxəssisləri birliyi arasında yüksəltmək imkanı
- TCS dəstəyi ilə tələb olunan təlimlər üçün üzvlüyə özəl endirimlər
- Konsaltinq xidmətlərindən endirimlər əldə etmə
- Rəsmi RMP (Corporate Membership) loqosundan istifadə etmək hüququ qazanmaq
- Üzvlük sertifikatının əldə edilməsi












rmp
Risk Management Professionals


HSE


HSE Conference









+994 12 480 08 12
+994 51 250 98 73
info@myrmp.org
www.myrmp.org

rmp

Risk Management Professionals

Azərbaycan, Bakı, Əhməd Rəcəbli 229-239 Blok 4A